## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

**UOT 902**
https://doi.org/10.59849/2218-4783.2026.2.97

# NAXÇIVANIN ERKƏN ENEOLİT DÖVRÜ ABİDƏLƏRİ

# EARLY CHALCOLITHIC MONUMENTS OF NAKHCHİVAN

**Vəli BAXŞƏLİYEV*, Elmar BAXŞƏLİYEV****

**XÜLASƏ**

Naxçıvanda I Kültəpə yaşayış yerindən aşkar edilən Xalaf tipli keramika Neolit dövründən başlayaraq Naxçıvanın qədim mədəniyyətlərinin Yaxın Şərqlə əlaqəli şəkildə inkişaf etdiyini təsdiq edir. 2010-2017-ci illərdə Naxçıvanda aşkar edilən Naxçıvantəpə, Uçan Ağıl və Bülövqaya kimi yaşayış yerləri bu əlaqələrin Eneolit dövründə də davam etdiyini göstərir. Ancaq Naxçıvanın Eneolit dövrü mədəniyyəti olduqca fərqli xüsusiyyətləri ilə fərqlənir. Əgər biz Uçan Ağılda I Kültəpədə formalaşan mədəniyyətin davamını görürüksə, Naxçıvantəpə yaşayış yerində Dalma Təpə tipli keramikanın yayılmasının şahidi oluruq. Bülövqaya yaşayış yeri isə Ubeyd mədəniyyətinin güclü təsirini əks etdirir. Arxeoloji araşdırmaların nəticələri Urmiya hövzəsi və Mesopotamiyada yayılan Dalmatəpə mədəniyyətinin Cənubi Qafqaz mənşəli olduğunu və bu mədəniyyətin Azərbaycanın Qarabağ bölgəsindən yayıldığını göstərir. Bu mədəniyyətin xarakterik xüsusiyyətlərindən biri basmanaxışlı keramikadır. Dalma Təpə mədəniyyətinin yayıldığı dövrdə Urmiya hövzəsində geniş yayılan boyalı keramika da Dalma boyalıları adı ilə tanıdılmışdır. Ancaq Dalma Təpə mədəniyyətinin araşdırılması Ubeyd mədəniyyətinin bu mədəniyyətə güclü təsir etdiyini göstərir. Naxçıvanda Uçan Ağıl, Naxçıvantəpə və Bülövqaya yaşayış yerlərinin araşdırılması zamanı Ubeyd tipli keramikanın aşkar olunması Ubeyd mədəniyyətinin şimala doğru yayıldığını təsdiq edir. Cənubi Qafqazda Qodedzorda Ubeyd tipli keramikanın aşkar olunması da bunu təsdiq edir. Urmiya hövzəsinin bəzi yaşayış yerlərində və Bülövqayada Dalma Təpə tipli basmanaxışlı keramikanın aşkar olunmaması bu regionda Dalma Təpə mədəniyyətindən fərqli bir mədəniyyətin də formalaşdığını təsdiq edir. Bülövqaya keramikasının forma və naxışlanmasında Ubeyd mədəniyyətinin güclü təsiri özünü aydın şəkildə göstərir. Belə hesab edirik ki, bu mədəniyyətlərin formalaşması Cənubi Qafqaz və Yaxın Şərq arasındakı iqtisadi-mədəni əlaqələr və miqrasiyalar nəticəsində mümkün olmuşdur. Deyə bilərik ki, bu miqrasiyaların və əlaqələrin formalaşmasında Şərqi Anadolu və Cənubi Qafqazın xammal mənbələri, xüsusilə obsidian və mis yataqları mühüm rol oynamışdır. Naxçıvantəpə və Bülövqaya sakinləri başlıca olaraq Cənubi Qafqazda və Şərqi Anadoludakı obsidian yataqlarından istifadə etmişlər.

**Açar sözlər**: *Yaxın Şərq, Cənubi Qafqaz, Azərbaycan, Naxçıvan, Dalma Təpə, Ubeyd mədəniyyəti.*

**ABSTRACT**

Halaf-style pottery found at the Kültepe I settlement in Nakhchivan confirms that ancient cultures of Nakhchivan developed in connection with the Near East starting from the Neolithic period. Settlements such as Nakhchivan Tepe, Uçan Ağıl, and Bülövkaya, discovered in Nakhchivan between 2010 and 2017, indicate that these connections continued into the Chalcolithic period. However, Chalcolithic culture of Nakhchivan stands out with its distinct characteristics. We see the continuation of the local Neolithic culture at Uçan Ağıl, while Dalma Tepe-type pottery spread to Nakhchivan Tepe. The pottery of the Bülövkaya settlement reflects the influence of the Ubaid culture. The results of archaeological research show that the Dalma Tepe Culture, which spread in the Urmia Basin and Mesopotamia, originated in the South Caucasus. This culture spread from the Karabakh region of Azerbaijan. One of the characteristic features of this culture is impressed pottery. Painted pottery, found in the Urmia Basin during the Dalma Tepe period, was identified as Dalma

*AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Üniversiteti, e-mail: velibahshaliyev@mail.ru
ORCID: 0000-0002-4914-3016.
**AMEA Naxçıvan Bölməsi, Erzurum Atatürk Üniversiteti, e-mail: elmarbakhshaliev@gmail.com
ORCID: 0000-0003-3360-0961.

painted. However, investigation of the Dalma Tepe Culture demonstrates the strong influence of the Ubaid culture. The discovery of Ubaid-style pottery during excavations at the Uçan Ağıl, Nakhchivan Tepe, and Bülövkaya settlements in Nakhchivan confirms the northward expansion of this culture. The absence of Dalma Tepe-style impressed pottery from some settlements in the Urmia Basin and at Bülövkaya indicates that a cultural tradition distinct from the Dalma Tepe Culture also developed in this region. We believe that economic and cultural relations, and migrations between the South Caucasus and the Near East played a significant role in the formation of these cultures. Considering that the Nakhchivan Tepe and Bülövkaya communities primarily used obsidian from the South Caucasus and Eastern Anatolia, we can conclude that the raw material resources in Eastern Anatolia and the South Caucasus, particularly obsidian, copper deposits, and abundant pastures, played a significant role in the formation of these migrations.

**Keywords:** *Near East, South Caucasus, Azerbaijan, Nakhchivan, Dalma Tepe, Ubaid culture.*

## GİRİŞ

Araşdırmalar Naxçıvanın Neolit və Eneolit mədəniyyətlərinin Yaxın Şərq ölkələri ilə əlaqəli şəkildə inkişaf etdiyini göstərir. Cənubi Qafqazın ən qədim Neolit yaşayış yeri I Kültəpədə Xalaf tipli keramikanın aşkar olunması bunu təsdiq edir. Qeyd edək ki, bəzi tədqiqatçılar Cənubi Qafqazda, o cümlədən Naxçıvanda keramikasız Neolit dövrünün olmamasına əsaslanaraq Neolit mədəniyyətinin Yaxın Şərq ölkələrindən gətirildiyini söyləmişlər [Ahundov, 2019: 98; Masson, 1964: 407]. Bəzi tədqiqatçılar isə keramika məmulatı, metal məmulatı, fauna və flora qalıqlarının yerli olmasına əsaslanaraq Neolit mədəniyyətinin yerli zəmində inkişaf etdiyini qeyd etmişlər [Bakhshaliyev, 2022: 139]. XXI əsrin əvvəllərində Naxçıvanda aparılan arxeoloji araşdırmalar yeni Eneolit abidələrinin kəşfi ilə nəticələnmişdir. Yeni tədqiq edilən Eneolit yaşayış yerləri Yaxın Şərq ölkələri ilə əlaqələrin e. ə. V minilliyin əvvəllərindən başlayaraq sürətləndiyini göstərmişdir. Naxçıvanın Eneolit abidələrinin tədqiqi Yaxın Şərq ölkələri ilə əlaqələrin yalnız iqtisadi-mədəni əlaqələrlə məhdudlaşmadığını, bu əlaqələrin inkişafında miqrasiyaların böyük rol oynadığını göstərir. Bu miqrasiyaların artması e. ə. VI minilliyin sonu və V minilliyin əvvəlində Dalmatəpə və Ubeyd mədəniyyətinin Naxçıvana yayılması ilə nəticələnmişdir. Bu araşdırmanın məqsədi Naxçıvanın Eneolit mədəniyyətlərini bütövlükdə araşdırmaya cəlb edərək bu miqrasiyaların səbəblərini və Yaxın Şərqin Cənubi Qafqaz mədəniyyətlərinin inkişafına təsirini müəyyənləşdirməkdir.

## ENEOLİT ABİDƏLƏRİNİN ARAŞDIRMA TARİXİ

Naxçıvanın Eneolit abidələrinin tədqiqinə XX əsrin 50-ci illərində başlanmışdır. I Kültəpə yaşayış yerində ilk arxeoloji qazıntılar 1959-1964-cü illərdə Osman Həbibullayevin rəhbərliyi ilə aparılmışdır. Yaşayış yerinin alt təbəqəsi O.H.Həbibullayev tərəfindən “1a” və “1b” olmaqla iki yerə bölünmüşdür [Həbibullayev, 1959: 14].Yaşayış yerinin “1a” təbəqəsi Neolit dövrünə “1b” təbəqəsi isə Eneolit dövrünə aid edilmişdir. Lakin, O.H.Həbibullayev sonrakı tədqiqat işlərində özünün əvvəlki fikirlərindən imtina etmiş, “1a” və “1b” təbəqələrinin hər ikisini Eneolit dövrünə aid etmişdir [Abibullayev, 1982: 24]. Digər tədqiqatçılar isə müqayisəli analizlərə əsaslanaraq “1a” təbəqəsini Neolit dövrü ilə tarixləndirməyə davam etmişlər [Narimanov, 1987: 133; Kuşnaryeva, 1997: 30-40; Seyidov, 2003: 21, 39-40]. 2013-2018-ci illərdə Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının I Kültəpənin Neolit dövrü təbəqəsində apardığı qazıntı nəticəsində iki təbəqə aşkar olunmuş və uyğun olaraq “təbəqə 1” və “təbəqə 2” adlandırılmışdır [Marro, Bakhshaliyev ve d., 2019: 81-113]. 2006-2013-cü illərdə Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Ovçulartəpə yaşayış yerində apardığı araşdırmalar nəticəsində Son Eneolit mədəniyyətinə aid iki tikinti qatının olduğu müəyyən edilmişdir [Marro, Bakhshaliyev & Ashurov, 2009: 31-37; Marro, Bakhshaliyev & Ashurov, 2011: 53-100] Birinci dövr e. ə. 4350-4200-cü illərə [Marro, Bakhshaliyev & Ashurov, 2010: 7], ikinci dövr isə e. ə. 4200-4000-ci illərə [Marro, Bakhchaliyev & Ashurov, 2011: 62] aid edilmişdir. 2005-2010-cu illərdə aparılan araşdırmalar sırasında Sirabçay vadisində çox sayda Eneolit yaşayış yeri aşkar olunmuşdur

[Bakhshaliyev & Novruzov 2010: 4-120]. Bu abidələr Ovçulartəpədən sonrakı dövrə aid olmaqla Son Eneolit mərhələsinin son mərhələsinin öyrənilməsi üçün əhəmiyyətli olmuşdur. 2013-2014-cü illərdə Sirabçay vadisində yerləşən Yeniyol və Şorsu yaşayış yerlərində V.B.Bakhshaliyevin rəhbərliyi ilə arxeoloji tədqiqatlar aparılmış, Son Eneolit dövrünə aid maddi-mədəniyyət qalıqları, o cümlədən arxitektura qalıqları və xeyli miqdarda keramika nümunələri aşkar olunmuşdur. Sirabçay vadisində yerləşən Zirincli, Şorsu və Uçan Ağıl yaşayış yerlərində 2014-2015-ci illərdə V.Bakhshaliyev və K.Maronun rəhbərliyi ilə beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası tərəfindən arxeoloji qazıntılar aparılmış, Zirincli və Şorsu yaşayış yerlərinin Son Eneolit dövründə məskunlaşdırıldığı müəyyənləşdirilmişdir [Bakhshaliyev, 2015: 136-145]. Sirabçay vadisində Zirincli yaşayış yerindən götürülən analiz e. ə. 4200-3700-cü ili, Yeniyol yaşayış yerinin alt qatlarından götürülən karbon analizin nəticələri e. ə. 4038-4018-ci illəri göstərmişdir. Bu yaşayış yerinin üst təbəqəsindən götürülən kömürün analizi e. ə. 3712-3622-ci illəri göstərmişdir. Sərinbulaq yaşayış yerindən götürülən komurün analizi e. ə. 3902-3880-ci illəri, Şorsudan götürülən kömürün analizi e. ə. 3910-3870-ci illəri, Dəyirman yeri yaşayış yerindən götürülən kömürün analizi e. ə. 3946-3701-ci illəri göstərmişdir. Bu analizlər Sirabçay abidələrinin Eneolit dövrünün sonuncu mərhələsini təmsil etdiyini deməyə imkan verir [Bakhshaliyev, 2023: 91-120]. 2010-2017-ci illərdə aparılan tədqiqatlar zamanı Naxçıvantəpə, Bülövqaya, Uzunoba kimi Eneolit yaşayış yerlərinin ortaya çıxarılması Cənubi Qafqazın, o cümlədən Azərbaycanın və Naxçıvanın Eneolit mədəniyyətinin öyrənilməsi üçün olduqca əhəmiyyətli oldu [Bakhshaliyev, 2020: 47-49]. Bu abidələrin tədqiqi Neolit dövrünü əvəz edən Erkən Eneolit dövründə insanların dinamik həyat tərzi yaşadığını, Yaxın Şərqlə əlaqələrin genişləndiyini və bölgədə müxtəlif mədəniyyətlərin formalaşdığını təsdiq etdi.

**DALMATƏPƏ MƏDƏNİYYƏTİNİN İZLƏRİ**

Bu mədəniyyətin izləri ilk dəfə Naxçıvantəpə yaşayış yerində qeydə alınmışdır. Bu yaşayış yeri Naxçıvan şəhərinin şərqində, Naxçıvançayın sağ sahilində, dəniz səviyyəsindən 853 m yüksəklikdə yerləşir. Yaşayış yerində 2017-2021-ci illər arasında, dörd qazıntı mövsümündə Vəli Bakhshaliyevin rəhbərlik etdiyi arxeoloji ekspedisiya tədqiqat aparılmışdır. Tədqiqat zamanı e. ə. 5200-4500-cü illəri əhatə edən dörd tikinti qatı aşkar edilmişdir. Bu tikinti qatlarınının hamısından Dalmatəpə mədəniyyəti üçün xarakterik maddi mədəniyyət nümunələri aşkar olunmuşdur [Bakhshaliyev, 2017: 108-12. Araşdırmalar bu yaşayış yerinin Dalmatəpə mədəniyyətinin önəmli mərkəzlərindən biri olduğunu təsdiq etmişdir. Bu yaşayış yerinin birinci tikinti qatı (Naxçıvantəpə 1) e. ə. 4600-4400-cü illərə, ikinci tikinti qatı (Naxçıvantəpə 2) e. ə. 4720-4529-cu illərə, üçüncü tikinti qatı (Naxçıvantəpə 3) e. ə. 4945-4722-ci illərə, dördüncü tikinti qatı e. ə. 5209-4930-cu illərə aid edilmişdir [Bakhshaliyev & Bakhshaliyev, 2023: 9-11]. Birinci və ikinci tikinti qatı üçün dördkünc formalı evlər, üçüncü dördüncü tikinti qatı üçün isə yarımqazmalar xarakterik olmuşdur.

**DALMA TİPLİ KERAMİKA**

Naxçıvantəpənin arxeoloji tapıntıları arasında keramika üstünlük təşkil edir. Keramika məmulatı sıkkiz qrupa ayrılaraq araşdırılmışdır [Bakhshaliyev & Bakhshaliyev, 2023: 37-42]. Bu qrupların hamısı forma və hazırlanma texnikasına görə Dalmatəpə mədəniyyəti üçün xarakterikdir. Ancaq bu qruplar arasında sadə, basmanaxışlı, boyalı və qırmızı anqoblu keramika üstünlük təşkil edir (şəkil 1). Araşdırmalar Dalmatəpə mədəniyyətinin Urmiya gölünün cənubunu, Şimali Mesopotamiya və Cənubi Qafqazı əhatə etdiyini göstərir [Bakhshaliyev & Bakhshaliyev, 2023: 20-22]. Daha öncə bu mədəniyyətin Urmiya hövzəsində formalaşdığı və cənuba yayıldığı qeyd edilmişdir [Young, 1966: 231; Hamlin, 1975: 111]. Lakin araşdırmalar göstərir ki, bu mədəniyyət Urmiya gölünün şimalında [Abedi, 2017: 69-87] və Cənubi Qafqazda da yayılmışdır. Naxçıvantəpə [Bakhshaliyev, 2018: 62-67],

Uçan Ağıl [Bakhshaliyev, 2022: şəkil 2] və Qodedzordan [Chataigner et al., 2006: 395, fig. 23.3, b] aşkar olunan tapıntılar bunu təsdiq edir.



**Şəkil 1.** Naxçıvantəpənin Dalma tipli keramikası.

Dalmatəpə mədəniyyəti üçün xarakterik olan sadə və boyalı keramika məmulatında Xalaf və Ubeyd mədəniyyətinin təsiri özünü göstərsə də, basmanaxışlı keramika Yaxın Şərq keramikasından tamamilə fərqlənir. Yaxın Şərq abidələrində bu keramikanın mənşəyi ilə bağlı heç bir dəlil aşkar olunmamışdır. Ancaq Cənubi Qafqazın, xüsusilə Azərbaycanın Qarabağ bölgəsindəki abidələrdə basmanaxışlı keramikanın Neolit dövrünə aid onlarla abidədən məlumdur [Ahundov, 2017: 45-763; Almemmedov, 2016: 247-250. Qarabağ abidələrində basmanaxışlı keramikanın inkişaf ardıcılığını da izləmək mümkün olmuşdur. E. ə. VI minilliyin ortalarına aid basmanaxışlılar texnoloji xüsusiyyətlərinə görə fərqli olsa da, e. ə. VI minilliyin sonlarına doğru Dalmatəpə keramikası üçün xarakterik olan keramika meydana çıxmışdır. Bu baxımdan basmanaxışlı Dalma keramikasının Qarabağın Neolit mədəniyyəti ilə bağlı olduğu heç bir şübhə doğurmur.

### NAXÇIVANTƏPƏ SAKİNLƏRİNİN TƏSƏRRÜFATI VƏ HƏYAT TƏRZİ

Naxçıvantəpə yaşayış yerinin tədqiqi göstərir ki, burada məskən salan tayfalar müxtəlif təsərrüfat sahələri, o cümlədən heyvandarlıq, dulusçuluq, daşişləmə, toxuculuq və metalişləmə ilə məşğul olmuşlar. Heyvandarlıq təsərrüfatda əsas sahələrdən biri olmuşdur. Heyvan sümüklərinin analizi heyvandarlıqda iribuynuzlu və xırdabuynuzlu heyvanların əsas yer tutduğunu göstərir [Bakhshaliyev et al., 2024: 15]. Cənubi Qafqazda Uçan Ağıl və Qodedzor, Urmiya hövzəsində Seavantepe [Soleski, 1973: 98], Lavintepe [Nobari et al. 2012: 95-117], Çoqa Maran [Henricson, 1983: 311], Tepe Siahbid [Henricson 1983: 305], Tepe Kışlak [Motarjem & Sharifi 2014: 49], Godintepe [Henrickson, 1983: 172]

və digər yaşayış yerlərinin yüksək dağlıq ərazilərdə yerləşməsi bu tayfaların həyatında köçmə maldarlığın əsas təsərrüfat sahələrindən biri olduğunu göstərir. Belə hesab edirik ki, Dalmatəpə mədəniyyətinin yayılmasında köçəri həyat tərzinin mühüm rolu olmuşdur. Ancaq araşdırmalar göstərir ki, köçmə maldarlığın inkişafı yalnız bol otlaqlarla deyil xammal yataqları ilə də bağlı olmuşdur. Cənubi Qafqazın zəngin mis və obsidian yataqları qədim maldar tayfalar üçün xüsusilə əhəmiyyətli idi. Naxçıvantəpə obsidianlarının araşdırılması[1] başlıca olaraq Göyçə (20,9%), Zəngəzur (47, 8%), Meydandağ (11,6%), Qutansar (9,3%), Arteni (6,6%), Xatis (2,7%) və Sarıqamış (1,1%) obsidianından istifadə olunduğunu göstərmişdir. Naxçıvantəpə yaşayış yerindən indiyədək metal əşyalar aşkar olunmamışdır. Ancaq daş alətlərin üzərindəki mis oksidi qalıqları bu tayfaların mədənçiliklə məşğul olduğunu təsdiq edir [Bakhshaliyev, 2021: 384, fig. 10].

**UBEYD MƏDƏNİYYƏTİNİN İZLƏRİ**

Naxçıvan abidələrinin araşdırılması e. ə. VI minilliyin sonu, V minilliyin əvvəlində Naxçıvanda boyalı keramika məmulatı ilə xarakterizə edilən mədəniyyətin yayıldığını göstərir. Bu mədəniyyət hələlik Bülövqaya yaşayış yerində aparılan araşdırmalar zamanı müəyyən edilmişdir. Bülövqaya yaşayış yeri dəniz səviyyəsindən 1450 m yüksəklikdə yerləşir. Yaşayış yeri 2024-2025-ci illərdə Vəli Bakhshaliyevin rəhbərlik etdiyi arxeoloji ekspedisiya tərəfindən araşdırılmışdır. Tədqiqat zamanı e. ə. V minilliyin birinci yarısını əhatə edən iki tikinti qatı aşkar olunmuşdur. Karbon analizlərin nəticəsi birinci tikinti qatının e. ə. 5007-4723-cü illərə, ikinci tikinti qatının isə e. ə. 4508-4353-cü illərə aid olduğunu deməyə imkan verir. Arxeoloji tədqiqatlar zamanı yaşayış yerindən dördkünc formalı evlərin qalıqları, keramika məmulatı, daş və sümük alət aşkar olunmuşdur. Arxeoloji araşdırmalar Bülövqaya yaşayış yerinin iş yerləri ətrafında qurulan yüngül konstruksiyalı evlərdən ibarət olduğunu göstərir.

**BÜLÖVQAYA KERAMİKASI**

Bülövqaya yaşayış yerindən aşkar olunan tapıntıların əksəriyyəti keramika məmulatından ibarətdir. Keramika məmulatı başlıca olaraq dörd qrupa ayrılaraq tədqiq edilmişdir [Bahşaliyev ve d. 2024: 42-46]. Başlıca olaraq saman, bəzən isə incə qum, yaxud qatqısız gildən hazırlanan keramika məmulatı arasında sədə (69,6%), və boyalı keramika (27,4%) çoxluq təşkil edir. İstər sadə istərsə də boyalı keramika məmulatı forma baxımından Ubeyd mədəniyyətinə aid keramika ilə bənzərdir (şəkil 2). Boyalı keramika naxış motivləri baxımından da Ubeyd keramikası ilə bənzərdir [Bahşaliyev ve d. 2024: 46-47]. Ancaq qeyd etmək lazımdır ki, Bülövqaya yaşayış yerinin boyalı keramikası naxış motivləri baxımından Ubeyd mədəniyyətini tamamilə təkrar etmir və özünəməxsus xüsusiyyətləri və orijinallığı ilə fərqlənir. Ancaq keramika məmulatı arasında qatqısız gildən hazırlanaraq yaxşı bişirilmiş bəzi nümunələr diqqəti çəkir. Bu nümunələr Ubeyd idxalı hesab edilə bilər. Keramika məmulatı arasında *cream-bowls* tipli kasa tipli qablar diqqət çəkicidir. Bu tip keramika məmulatı Xalaf-Ubeyd mədəniyyəti üçün xarakterikdir. Bu tip qablar Sabi-Abyad [Akkermans, 1987, fig. 4, 10; Akkermans, 1989: IV. 28, 204] və Tell Arpaçiya'nın [Mallowan & Cruikshank, 1933: 54, 4] Halaf təbəqəsindən, Yarım Təpə II [Amirov, 2018: 7, 1, 3; Merpert & Munchaev, 1987: 19, 3-4], Tell Agab [Davidson & Watkins, 1981: 2, 4] ve Tülintəpə'nin Ubeyd təbəqəsindən məlumdur [Esin & Arsebuk, 1974, s. 121; Esin & Arsebuk, 1982, s. 91].

Bülövqaya keramikasının araşdırılması bu mədəniyyətin Ubeyd mədəniyyətinin güclü təsirinə məruz qaldığını göstərir. Belə hesab edirik ki, bu təsir Ubeyd tayfalarının şimala doğru hərəkəti ilə bağlı ola bilərdi. Tədqiqatçılar Ubeyd mədəniyyətinin Yaxın Şərq yayılmasını texnoloji yeniliklər,

[1] Naxçıvantəpə yaşayış yerinin obsidianları Dr. M. Orange tərəfindən araşdırılmışdır.

xüsusilə dulus çarxının ixtirası ilə bağlamışlar [Amirov, 2018: 15-23]. Qeyd edək ki, Bülövqayada dulus çarxında hazırlanmış keramika aşkar olunmamışdır. Bizim araşdırmalarımız göstərir ki, Ubeyd mədəniyyətinin Urmiya hövzəsi və Cənubi Qafqaza yayılmasında köçmə maldarlığın da müəyyən rolu olmamışdır.



**Şəkil 2.** Bülövqayanın Ubeyd tipli keramikası.

**BÜLÖVQAYA SAKİNLƏRİNİN TƏSƏRRÜFATI VƏ HƏYAT TƏRZİ**

Arxeoloji tapıntılar, xüsusilə keramika sobasının qalıqları, mədənçilik alətləri, iy başlıqları, sümük, çaxmaqdaşı və obsidian alətlər insanların müxtəlif təsərrüfat sahələri ilə məşğul olduğunu göstərir. İqtisadiyyatın əsas sahələrindən biri heyvandarlıq olmuşdur. Bülövqaya yaşayış yerindən aşkar olunan yüngül konstruksiyalı evlərin qalıqları və heyvan sümüklərinin analizi insanların mobil həyat tərzi keçirdiyini təsdiq edir. Heyvan sümüklərinin tədqiqi göstərir ki, iribuynuzlu heyvanlar heyvandarlıqda əsas yer tutmuş, xırdabuynuzlu heyvanlar ikinci yerdə olmuşdur[2]. Bülövqaya insanlarının həyatında heyvandarlıqla yanaşı ovçuluq və yığıcılığın da əhəmiyyətli yeri olmuşdur. Mədənçilik alətləri Bülövqaya insanlarının Cənubi Qafqazın xammal yataqlarından da faydalandığını göstərir. Bülövqayada metal emalının izləri hələlik aşkar olunmamışdır. Analizlər Bülövqayada istifadə olunan obsidianın başlıca olaraq Zəngəzur yataqlarından gətirildiyini göstərir. Ancaq az da olsa Meydandağ obsidianından da istifadə olunmuşdur [Bahşaliyev ve d. 2024, s. 42].

**KÖÇMƏ MALDARLIQ**

Naxçıvanın əlverişli təbii-coğrafi şəraiti burada qədim insanların məskunlaşması və köçmə maldarlığın inkişafı üçün əlverişli olmuşdur [Baxşəliyev, 2023: 11]. Naxçıvanın Araz çayına qovuşan Naxçıvançay, Arpaçay, Gilançay və Vənəndçay vadilərində yerləşən məhsuldar torpaqlar əkinçilik və qışlaq maldarlığının inkişafına şərait yaratmışdır. Arxeoloji araşdırmalar göstərir ki, e. ə. VII minillikdə I Kültəpədə artıq istehsal təsərrüfatı formalaşmışdı. Bu dövrdə əsas heyvan cinsləri artıq əhliləşdirilmişdi. Maldarlıqda birinci yeri xırdabuynuzlu heyvanlar tutmuşdur [Marro et al. 2019: 105]. Dəniz səviyyəsindən 2400 m yüksəklikdə yerləşən Osmantəpə yaşayış yerində mədəni təbəqə az, 0,8-

[2] Heyvan sümüklərinin qalıqları Mardin Artuklu Universitetinin dosenti, Doç.Dr. Abu Siddik tərəfindən araşdırılmışdır.

1 m arasında yığılması burada həyatın mövsümi xarakterdə olduğunu göstərir [Bakhshaliyev, 2023b: 154-168]. Köçmə maldarlığın formalaşması iqtisadiyyatın inkişafına və Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin formalaşmasına şərait yaratmışdır. Fikrimizə görə, yüksək keyfiyyətli, Yaxın Şərq mənşəli keramikanın Cənubi Qafqaza daxil olması da miqrasiyaların olduğunu təsdiq edir. Erkən Eneolit dövründə dağlıq ərazilərdə aşkar olunan mövsümi yaşayış yerləri köçmə maldarlığın inkişafını təsdiq edir. Uçan Ağıl və Bülövqayada aparılan araşdırmalar bu yaşayış yerlərində həyatın mövsümi xarakterdə olduğunu göstərir.

**XAMMAL MƏNBƏLƏRİ**

Naxçıvanın Erkən Eneolit abidələrindən mis əşyalar tapılmasa da, mədənçilik alətlərinin aşkar olunması, mədənçiliyin bu tayfaların həyatında mühüm yer tutduğunu göstərir. Naxçıvanda, həmçinin onun şimal-şərqini əhatə edən Zəngəzur dağlarında zəngin mis yataqları vardır [Bakhshaliyev, 2005: 16-28; Yessen, 1935: 7-216]. Zəngəzur dağları obsidian yataqları ilə də zəngindir. Neolit dövründə başlıca olaraq Şərqi Anadolu obsidianına üstünlük verən Yaxın Şərq ölkələri e. ə. VI minilliyin sonlarından başlayaraq Qafqaz obsidianından da istifadə etməyə başlamışdır [Barge ve d. 2018: 310-311]. Erkən Eneolit dövründə Naxçıvanda məskən salan qədim tayfalar başlıca olaraq Zəngəzur, Goyçə (Sevan) və Şərqi Anadolu obsidianından istifadə etmişlər [Bakhshaliyev & Bakhshaliyev, 2021: 189-191]. Bu baxımdan Naxçıvanın Erkən Eneolit yaşayış yerləri bir birindən fərqlənirlər. Belə ki, Naxçıvan Təpədə Zəngəzur obsidianı 42%, Göyhasar 37%, Meydandağ 19% olmuşdur [Orange ve et al., 2021a: 129]. Uçan Ağılada isə Zəngəzur obsidianı 86% olmuş, qismən isə Göyhasar obsidianından istifadə olunmuşdur. Bülövqaya yaşayış yerində də başlıca olaraq Zəngəzurdan istifadə olunmuşdur. Bülövqaya obsidianlarının az bir qismi Meydandağdan gətirilmişdir. Araşdırmaların nəticələri e. ə. V minilliyin əvvəli və birinci yarısında Cənubi Qafqaz obsidianının Eneolit tayfalarının həyatında mühüm rol oynadığını göstərir.

**XRONOLOGİYA**

Araşdırmalar Bülövqaya yaşayış yerindən aşkar olunan boyalı keramikanın Tell Arpaçiyanın Ubeyd təbəqəsinin aşkar olunan keramika nümunələri, həmçinin Tell Abada [Jassim 2021: 273, 4-8] və Tell Raşidin [Jassim, 2021: 447, 5-8] Ubeyd 2 və Ubeyd 3 dövrünə aid materialları ilə bənzərdir [Mallowan, Cruikshank, 1933: 3-7]. Bülövqayadan aşkar olunan sadə keramika məmulatı da öz bənzərlərinin Yaxın Şərq ölkələrinin Ubeyd 3 dövrü materialları arasında tapır [Jassim, 2021: 370]. Bülövqayanın qabarıq gövdəli kasa tipli qabları, ağız kənarı xaricə doğru qalınlaşdırılmış qabları [Jassim, 2021: 272] və silindrik lüləkli qabları da Tell Abadadan [Jassim, 2021: 334] məlumdur. Radiokarbon analizlərin nəticələri Tell Abadanın II təbəqəsinin e. ə. 4670 ± 70-ci illər ilə tarixləndiyini [Jassim, 2021: 100], Tell Madurun bu dövrə aid təbəqəsi isə e. ə. 4470 ± 80-ci illərə [Roaf, 1982, s. 41] aid olduğunu göstərir. Bülövqayada üst təbəqədən götürülən karbon nümunənin analizi e. ə. 4508-4353-cü ili, alt təbəqədən götürülən karbon nümunələrdən birinin analizi e. ə. 4953-4723-cü ili, digəri isə e.ə. 5007-4782-ci ili göstərmişdir (cədvəl 1). Bu dövr Uçan Ağılda e. ə. 4600-4350-ci ili [Marro, 2021: 111-130], Uzunobada e. ə. 4620-4370-ci ili [Bakhshaliyev & Bakhshaliyev, 2023: 9-34] göstərmişdir. Ubeyd tipli keramika həmçinin Naxçıvantəpədən məlumdur [Bakhshaliyev & Bakhshaliyev, 2023: 64, fig. 12, 12-15]. Naxçıvantəpənin bu təbəqəsindən karbon nümunələrdən birinin analizi e. ə. 4945-4722-cü ili, digəri e. ə. 4686-4464-cü ili [Bakhshaliyev & Bakhshaliyev 2023: 34, tablo 1] göstərmişdir. Ubeyd mədəniyyətinin Urmiya hövzəsinə nüfuzu da e. ə. V minilliyin birinci yarısı ilə tarixləndirilə bilər. Bu faktlara baxıldığında deyə bilərik ki, Ubeyd tipli keramikanın Bülövqaya yaşayış yerində görülməsi e. ə. V minilliyin birinci yarısına aiddir. Onu da qeyd etmək lazımdır ki, e. ə. V minilliyin ikinci yarısında Naxçıvanda Ovçulartəpə yaşayış yerindən yaxşı bilinən Son Eneolit

dövrü mədəniyyəti yayılmışdır. Urmiya hövzəsində də oxşar hadisə baş vermişdir. Buna görə də deyə bilərik ki, Urmiya hövzəsinə Ubeyd mədəniyyətinin təsiri e. ə. V minilliyin birinci yarısında baş vermişdir. Bu mədəniyyətin Bülövqayaya yayılması da həmin dövrə aid etmək olar.

**DƏYƏRLƏNDİRMƏ**

Naxçıvantəpə və Bülövqaya yaşayış yerinin tapıntıları e. ə. VII-VI minilliklərdə Yaxın Şərqlə başlayan əlaqələrin e. ə. V minillikdə daha da intensivləşdiyini göstərir [Bakhshaliyev et al., 2024: 17]. Naxçıvanın Erkən Eneolit abidələrinin tədqiqi bu intensivləşmənin Cənubi Qafqazın xammal mənbələri, o cümlədən bol otlaqları, zəngin mis və obsidian yataqları ilə bağlı olduğunu göstərir. Naxçıvantəpə və Bülövqaya yaşayış yerinin tədqiqi bu əlaqələrin e. ə. V minilliyin əvvəlindən e. ə. V minilliyin ortalarına kimi davam etdiyini göstərir. Naxçıvantəpə yaşayış yeri istər arxitektura, istərsə də keramika məmulatına görə Dalmatəpə mədəniyyətinin xüsusiyyətlərini əks etdirir. Dalmatəpə keramikasının bütün xüsusiyyətləri Naxçıvantəpədə mövcuddur. Lakin Bülövqaya yaşayış yerinin istər sadə, istərsə də boyalı keramikasında Ubeyd mədəniyyətinin güclü təsiri hiss edilməkdədir. Ancaq qeyd etmək lazımdır ki, Bülövqaya keramikası Ubeyd mallarını tamamilə təkrar etmir. Digər tərəfdən Bülövqayada biz yerli Neolit mədəniyyətinin və Şərqi Anadoluda formalaşan mədəniyyətlərin izlərini də görürük. Əgər boyalı keramikada Ubeyd mədəniyyətinin təsiri görünürsə, relyef kəmər üzərindən barmaq basqısı və çərtmələrlə naxışlanmış keramikada Şərqi Anadolu mədəniyyətlərinin təsiri vardır. Bununla belə, Bülövqaya yaşayış yerinin bəzi keramika tipləri Urmiya hövzəsinin keramikasında fərqlənir. Bülövqaya yaşayış yerinin boyalı keramikası da özünəməxsus xüsusiyyətləri ilə Ubeyd boyalılarından fərqlənir. Urmiya hövzəsi və Naxçıvanın Erkən Eneolit abidələrinin tədqiqi bu dövrdə Naxçıvanda Mesopotamiyada, İranın qərbində və Cənubi Qafqazdakı mədəniyyətlərdən fərqlənən yeni bir mədəniyyətin formalaşdığını deməyə imkan verir. Bu mədəniyyət e. ə. V minillikdə Mesopotamiya, Urmiya hövzəsi və Naxçıvanda yayılan Dalma Təpə mədəniyyətindən basmanaxışlı (*impression*) və qırmızı boyalı keramikanın (*red slipped*) olmaması ilə fərqlənir və Dalma Təpə mədəniyyəti adlandırıla bilməz. Bu mədəniyyətin formalaşmasına, şübhəsiz ki, Ubeyd mədəniyyətinin təsiri olmuşdur. Belə hesab edirik ki, bu Şimali Mesopotamiyada məskən salan tayfaların şimala doğru hərəkəti ilə bağlı olmuşdur. Ancaq Ubeyd tayfalarının şimala doğru hərəkəti birdən birə deyil tədricən baş vermiş və tədqiqatçıların qeyd etdiyi kimi, dinc xarakter daşımışdır [Stein, 2012: 23-44]. Ubeyd mədəniyyətinin şimala doğru diffuziyası nəticəsində bu mədəniyyətlərin qovuşması və qarşılıqlı təsiri baş vermiş və yeni bir mədəniyyət formalaşmışdır.

**NƏTİCƏ**

Naxçıvanın Erkən Eneolit yaşayış yerlərinin tədqiqi göstərir ki, e. ə. VI minilliyin sonu və V minilliyin əvvəlində Yaxın Şərqlə iqtisadi-mədəni əlaqələr artmış, Naxçıvanın Eneolit mədəniyyətinə Yaxın Şərq sivilizasiyalarının böyük təsiri olmuşdur. Naxçıvanda Dalmatəpə mədəniyyətinin yayılması da Yaxın Şərq və Cənubi Qafqaz ölkələri ilə qarşılıqlı əlaqələrin nəticəsidir. Araşdırmalar göstərir ki, Yaxın Şərq və Cənubi Qafqaz mədəniyyətlərinin bir-birinə təsiri təkcə mədəni əlaqələr ilə deyil, Cənubi Qafqaz tayfalarının cənuba, Yaxın Şərqdə yaşayan tayfaların isə şimala doğru hərəkət edərək Cənubi Qafqazda məskunlaşması ilə də bağlıdır. Uçan Ağıl, Naxçıvantəpə və Bülövqayada Ubeyd tipli boyalı keramika məmulatlarının tapılması da bununla bağlıdır. Ubeyd tayfalarının şimala doğru hərəkəti sayəsində Urmiya hövzəsi ilə Şərqi Anadolunun qovşağında Dalma Təpə mədəniyyətindən fərqli bir mədəniyyət də formalaşmışdı. Bülövqaya yaşayış yerinin tapıntıları bu mədəniyyətin Naxçıvanı da əhatə etdiyini göstərir. Arxeoloji tədqiqatlar Naxçıvanda məskən salan tayfaların köçəri heyvandarlıq, mədənçilik və heyvandarlıqla məşğul olduqlarını göstərir. Bülövqaya tapıntıları arasında öz forması və dekorativ motivləri ilə seçilən sadə və boyalı qablar Dalma Təpə mədəniy-

yətindən fərqlənməklə yanaşı, həm də Ubeyd mədəniyyətinin təsirini əks etdirir. Digər tərəfdən, Bülövqayada geniş qazıntılar aparılmasına baxmayaraq, basmanaxışlı keramika aşkar olunmamışdır. Bu da onu deməyə əsas verir ki, Bülövqaya keramikası Dalma Təpə mədəniyyəti ilə eyniləşdirilə bilməz. Bülövqayada inkişaf edən mədəniyyət Ubeyd mədəniyyətindən təsirlənən müstəqil bir mədəniyyət idi. Arxeoloji tədqiqatlar göstərir ki, eramızdan əvvəl VI-V minilliklərdə Mesopotamiya və Urmiya hövzəsindəki yaşayış məskənlərində Cənubi Qafqazdan obsidiandan istifadə artmışdır. Bu kontekstdə qeyd etmək olar ki, bu mədəniyyətə mənsub tayfaların Naxçıvana köçü Cənubi Qafqazın zəngin xammal ehtiyatları, xüsusən də obsidian və bol otlaqları ilə bağlı olmuşdur.

## ƏDƏBİYYAT

Abedi, A. (2017). Iranian Azerbaijan Pathway From The Zagros To The Caucasus, Anatolia And Northern Mesopotamia: Dava Göz, A New Neolithic And Chalcolithic Site In NW Iran. *Mediterranean Archaeology and Archaeometry*, 17, 1, 69-87.

Abibullayev, O.A. (1982). *Chalcolithic and Bronze Age on the territory Nakhchivan ASSR*. Элм.

Akkermans, P. (1987). A Late Neolithic and Early Halaf Village at Sabi Abyad, Northern Syria. *Paléorient*, 13, 1, 23-40.

Akkermans, P. (1989). The Prehistoric Pottery of Tell Sabi Abyad. Excavations at Tell Sabi Abyad. *Prehistoric investigations in the Balikh Valley, Northern Syria*, Oxford, 77-214.

Almemmedov, H. (2016). *Collection of the Karabakh archaleogical monuments*. Çap Art.

Amirov, Sh. (2018). The Morphology Of Halafian painted pottery From Yarim Tepe II, And The Process of Ubaidian Acculturation. *II Workshop on Late Neolithic Ceramics in Ancient Mesopotamia: pottery in context, Monografies del MAC 1* (Ed. A.Gómez-Bach, J/Becker and M. Molist), 15-23. https://ddd.uab.cat/pub/caplli/2018/266576/worlatneocerancmes_a2018p15.pdf

Akhundov, T.I. (2017). *At the origins of Caucasian civilization (Monuments of traditions of the Karabakh Neolithic)*. Afpolygraph.

Akhundov, T. (2019). Neolithic of the South Caucasus. *Antiquities of East Europe, South Asia and South Siberia in the Context of Connections and Interactions within the Eurasian Cultural Space (new data and concepts)* [Proceedings of the international conference, St. Petersburg, November 18-22, 2019], 97-100.

Bakhshaliyev, V.B. (2005). *Ancient metallurgy and metalworking on the territory of Nakhchivan*. Elm.

Bakhshaliyev, V.B. (2014). New Chalcolithic monuments on the territory of Nakhchivan, *Rossijskaja Arheologija*, 1, 83-90.

Bakhshaliyev, V.B. (2015). New materials of the Neolithic and Chalcolithic Age on the territory of Nakhchivan, Rossijskaja Arheologija, 2, 136-145.

Bakhshaliyev, V.B. (2017). Research of Chalcolithic Monuments in Sirabçay and Nakhchivanchay valleys. *Problems of the Archaeology of the Caucasus and Near East. Neolithic - Late Bronze Age*, 108-121. Institute of Archaeology and Etnography.

Bakhshaliyev, V. (2021). Archaeological investigations at Nakhchivan Tepe. *On salt, copper and gold: the beginnings of early mining and metallurgy in the Caucasus, Archéologie (s)*, 5, 375-386.

Bakhshaliyev, V.B. (2022). Archaeological excavations at the settlement of Kültepe I. *Rossijskaja Arheologija*, 2, 139-152.

Bakhshaliyev, V. (2023). *Archaeology of Nakhchivan in the ligth new discoveries*. Adjami.

Bakhshaliyev, V.B. (2023b). The settlement of Osman Tepe is a monument of the stone age. *Reports of the National Academy of Sciences of Azerbaijan*, 2, 154–168.

Bakhshaliyev, E. (2020). Links between the Middle Chalcolithic cultures of Nakhchivan and the Middle East. *Ancient and medieval cultures of Central Asia (establishment, development and interaction of urbanized and pastoral societies)*, 47-49.

Bakhshaliyev, E. (2018). İmpression ceramics of the settlement Nakchchivan Tepe. *Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri*, 2, 62-68.

Bakhshaliyev, E. (2018 b). Painted ceramics of the settlement Nakhchivan Tepe. *Transactions National Academy of Sciences of Azerbaijan*, 91-99.

Bakhshaliyev, E. (2025). Comparative analysis of Ubaid and Bülövkaya ceramics. *Scientific works of Nakhchivan Branch of Azerbaijani National Academy of Sciences*, 1, 100-105.

Bakhshaliyev, V., Marro C. & Aşurov S. (2010). *Ovçulartepe*. Elm.

Bakhshaliyev, V. & Novruzov Z. (2010). *Archaeological researches at the Sirab*. Oskar.

Bakhshaliyev, E. &Bakhshaliyev, V. Neolithic layer of the settlement of Nakhchivan Tepe. *Rossijskaja Arheologija*, 2, 2021, 187-197.

Bakhshaliyev, V. & Bakhshaliyev, E. (2023). *Origin of Dalma Tepe Culture*. Adjami.

Bakhshaliyev, V., Marro, K., Berthon, R. & Orange, M. (2024). New data on the connections of ancient settlers of Nakhchivan with the Middle East. *Rossijskaja Arheologija*, 1, 7-21.

Barge, O., Azizi Kharanaghi, H., Biglari, F., Moradi, B., Mashkour, M., Tengberg, M. & Chataigner, Ch. (2018). Diffusion of Anatolian and Caucasian obsidian in the Zagros Mountains and the highlands of Iran: Elements of explanation in 'least cost path' models. *Quaternary International*, 467, 297-322.

Chataigner, C., Avetisyan, P., Palumbi, G. & Uerpmann, H.P. (2006). Godedzor, a Late Ubaid-related Settlement in the Southern Caucasus. *Beyond the Ubaid transformation and integration in the late Prehistoric societies of the Middle East* (Edited by R.A.Carter and G.Philip) [Papers from the Ubaid expansion? Conference held at Durham, 20–22 april], 391-409. McNaughton & Gunn.

Davidson, T.E. & Watkins, T. (1981). Two Seasons of Excavation at Tell Aqab in the Jezirah, N.E. Syria. *Iraq*, 43, 1, 1–18.

Esin, U. & Arsebuk, G. (1974). Tepecik ve Tülintepekazısı 1971. *Keban Projesi 1971 Çalışmaları*, 111-159.

Esin, U., Arsebük, G. (1982). Tülintepe kazısı 1974. *Keban Projesi 1974-1975 Çalışmaları*, 119-134.

Hamlin, C. (1975). Dalma Tepe. *Iran*, 13, 111-127.

Hebibullayev O.H. (1959). *Archaeological excavations at Kültepe*. Azerbaycan SSR Elmler Akademiyası neşriyyatı.

Henrickson, E.F. (1983). *Ceramic styles and cultural interaction in the Early and Middle Chalcolithic of the Central Zagros, İran* [A Thesis submitted in conformity with the requirwmwnts for the degree of Doctor of philosophy in the University of Toronto].

Jassim, S.A. (2021). *Excavation at Tell Abada, Iraq*. Chicago.

Kushnareva K.Kh. (1997). *Southern Caucasus in prehistory: Stage of Cultural and Socioeconomic Development from the Eighth to the Second Millennium BC.* University of Pennsylvania.

Marro, C. (2021). The View from the North. The Emergence and Spread of the Chaff-Faced Ware Oikumenè as Seen from the Caucasus (ca. 4600-3500 BCE). *Paléorient*, 48, 1, 111-130.

Marro, C., Bakhchaliyev V. & Ashurov S. (2009). Excavations at Ovçular Tepesi (Nakhchivan, Azerbaijan). First preliminary report: the 2006-2008 seasons. *Anatolia Antiqua*, 17, 31-87.

Marro C., Bakhshaliyev V. & Ashurov, S. (2011). Excavations at Ovçular Tepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: the 2009-2010 seasons. *Anatolia Antiqua*, 19, 53-100.

Marro C., Bakhshaliyev V., Berthon R. & Thomalsky J. (2019). New light on the Late Prehistory of the South Caucasus: Data from the recent excavation campaigns at Kültepe I in Nakhchivan, Azerbaijan (2012-2018). *Paléorient*, 45, 1, 81-113.

Mallowan, M.E.L. & Cruikshank, J.R. (1935). Excavations at Tall Arpachiyah. *Iraq*, 2, 1, 1-178.

Masson, V.M. (1964). *Central Asia and Ancient East*. Nauka.

Merpert, N.Y. & Munchaev, R.M. (1987). The Earliest Levels at Yarim Tepe I and Yarim Tepe II in Northern. *Iraq*, 49, 1-36.

Motarjem A. & Sharifi M. (2014). Cultural Development of Chalcolithic Era in the East of Central Zagros based on Archaeological Excavations at Tepe Gheshlagh. *İranian Journal Of Archaeological Studies*, 4, 49-65.

Narimanov I.G. (1987). *Culture of the ancient agricultural and pastoral population of Azerbaijan.* Elm.

Nobari H., Binandeh A., Nestani J. & Vahdati N.H. Excavation at Lavin Tepe North-west Iran. *Ancient Near East Studies*, 40, 2012, 95-117.

Orange, M., Bakhshaliyev, V., Berthon, R., Marro, C. & Bourdonnec, F.L. (2021). Polysource Procurement at Nakhchivan Tepe (Azerbaijan, Chalcolithic*). First Insights Into The Obsidian Consumption Patterns of a Dalma Site Recently discovered in the Southern Caucasus* (Eds. K.T.Biró, A.Markó), 121-132. Budapesht.

Roaf, M. (1982). The Hamrin Sites. In J. Curtis (Ed.), *Fifty Years of Mesopotamian Discovery,* 40-47. The British School of Archaeology in Iraq.

Seyidov, A.Q. (2003). *Nakhchivan at the VII-II millenium BC*. Elm.

Solecki, R.L. & Solecki, R.S. (1973). *Tepe Seavan: A Dalma period site in the Margavar valley, Azerbaijan, Iran*. Bulletin of the Asia Institute of Pahlavi University, 3, 98-117.

Stein, G. (2012). Local Identities and Interaction Spheres: Modeling Regional Variation in the Ubaid Horizon. *Beyond the Ubaid transformation and integration in the late Prehistoric societies of the*

*Middle East* [İnternational Workshop held at Grey College, University of Durham, 20-22 april 2006], 23-44. McNaughton & Gunn.

Young T.C. (1966). Survey in Western Iran, 1961. *Journal of Near Eastern Studies*, 25/4, 228-239.

Yessen, A.A. (1935). To the question of the ancient metallurgy of copper in the Caucasus. *News GAIMK*, 120, 7-216.

**Daxilolma tarixi: İlkin variant 02.06.2026**
**Son variant 12.06.2026**